**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU**

ISSN 2663-4414 (Print)
ISSN 2709 – 0762 (E-Print)

---

# MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ

BEYNƏLXALQ ELMİ JURNAL



**AZƏRBAYCAN-ÖZBƏK ƏDƏBİ ƏLAQƏLƏRİ**
XÜSUSİ BURAXILIŞ

---

## COMPARATIVE LITERATURE STUDIES

**INTERNATIONAL SCIENTIFIC JOURNAL**
SPECIAL ISSUE

**BAKI – 2020, № 1**

# Əlişir Nəvai – dilçi-türkoloq

**Möhsün Nağısoylu**
Akademik, AMEA Nəsimi adına Dilçilik İnstitutu. Azərbayan.
E-mail: dr_mohsun@yahoo.com
https://orcid.org/0000-0003-0943-8888

**Annotasiya.** Böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvai bədii yaradıcılıqla yanaşı, elmi fəaliyyətlə də məşğul olmuş və bir sıra risalələr yazmışdır. Şairin ömrünün sonlarında qələmə aldığı "Mühakimətül-lüğəteyn" əsərində dilçiliklə, xüsusilə də türkologiya ilə bağlı bir sıra maraqlı və dəyərli fikirləri yer almışdır. Müəllif kiçikhəcmli bu əsərində türk dili ilə farscanı qarşılaşdırmış və doğma dilindəki yüz feilin farscada qarşılığının olmadığını qeyd etmişdir. Bundan əlavə risalədə etnoqrafik səciyyəli bir sıra sözlərin fars dilində qarşılığının olmadığı və bu səbəblə də onların eynilə həmin dilə keçdiyi də vurğulanır. Nəvainin bu əsərində bir dilçi-türkoloq kimi böyük maraq doğuran fikirlərindən biri də türkcənin bəzi morfoloji xüsusiyyətlərini, sözyaratma qüdrətini önə çəkməsidir. Bütün bunları qeyd edən Nəvai üzünü türkdilli soydaşlarına tutaraq, türkcənin bir sıra keyfiyyətlərinə görə farscadan üstün olduğunu göstərir və onları doğma dilində yazmağa səsləyir.
**Açar sözlər:** Nəvai, "Mühakimətül-lüğəteyn", türk, sart, feillər, söz yaradıcılığı

http://dx.doi.org/10.29228/edu.133
**Məqaləyə istinad:** Nağısoylu M. (2020) *Əlişir Nəvai – dilçi-türkoloq*. «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 47-53
**Məqalə tarixçəsi:** göndərilib – 19.06.2020; qəbul edilib – 22.06.2020

## Alishir Navoiy – linguist-turkologist

**Mohsun Nagisoylu**
Academician, director of the Institute of Linguistics
named after Nasimi of ANAS. Azerbaijan.
E-mail: dr_mohsun@yahoo.com
https://orcid.org/0000-0003-0943-8888

**Abstract**. Great Uzbek poet and thinker Alisher Navoiy carried out artistic creativity and scientific activities and wrote a number of risales (letters). In the work "Mohakemat al-lugateyn" written by the poet at the end of his life was dealt with interesting and valuable thoughts about linguistics and turkology. Author in his work compared the Tukish language with Persian and noted that there is no equivalent of one hundred verbs of his native language in Pesrian language. In addition in the risales (letters) is emphasized that there is no equivalent of a number of ethnographic words in Persian language and for this reason they are transferred to that language as they were. One of Navoiy's interesting ideas in his work as linguist-turkologist is that he brought forward some morphological features and word-building power of Turkish languange. Navoiy showed to his Turkish-speaking compatriots that Turkish language for a

number of features is superior to Persian and called them to write in their native language.
**Keywords:** Navoiy, “Mohakemat al-lugateyn”, Turkish, sart, verbs, word-building.

http://dx.doi.org/10.29228/edu.133
**To cite this article:** Naghisoylu M. (2020) *Alisher Navoiy - linguist-turkologist*. «Comparative Literary Studies», Issue I, pp. 47-53
**Article history:** received − 19.06.2020; accepted − 22.06.2020

## Giriş / *Introduction*

Dahi özbək şairi və mütəfəkkiri Əmir Əlişir Nəvai təkcə qardaş özbək xalqının deyil, eyni zamanda bütün türk dünyasının ən böyük söz ustalarından biridir. Nəvai hələ orta əsrlərdə türkcə danışan müsəlman Şərqinin geniş bir coğrafi məkanında, o sıradan Azərbaycanda böyük şöhrət qazanmış, bir sıra tanınmış Azərbaycan şairlərinin (məsələn: Kişvəri, Füzuli, Sadiqi və s.) yaradıcılığında silinməz izlər buraxmışdır. Nəvainin bütün türk dünyasında tanınması və sevilməsinin başlıca səbəblərindən biri bu böyük söz ustasının çoxşaxəli yaradıcılığında, xüsusilə də bədii əsərlərində doğma dilinə – türkcəyə üstünlük verməsi, məhz bu dildə dünya ədəbiyyatının nadir söz sənəti incilərini qələmə almasıdır. Bu baxımdan Nəvainin böyüklüyünə və yenilikçi bir sənətkar olmasına sübut olaraq qeyd etmək lazımdır ki, mütəfəkkir şair türk dilində, daha doğrusu, çağatayca böyük Azərbaycan şairi Nizami Gəncəvinin təsiri ilə ilk dəfə “Xəmsə” – beş poema yazmışdır. Bundan əlavə Nəvai türkcə ilk şairlər antologiyası – təzkirə olan “Məcalisün-nəfais”in müəllifi kimi tanınır.

## Əsas hissə / *Main Part*

Nəvai türkcə yazmağı ilə fəxr etmiş və bu dildə qələmə aldığı əsərlərinin türkcə danışan bütün ölkə və diyarlarda, o cümlədən o zamankı Azərbaycanın paytaxtı olan Təbriz şəhərində böyük şöhrət tapdığını, “Xəmsə”nin ikinci məsnəvisi olan “Fərhad və Şirin” poemasının sonunda bu şəkildə ifadə etmişdir:

*Агар бир қавм, гар юз, йўқса мингдур,*
*Муайян турк улуси худ менингдур.*
*Олибмен тахти фармонимға осон,*
*Черик чекмай Хитодин то Хуросон.*
*Хуросон демаким, Шерозу Табрез*
*Ки, қилмишдур найи килким шакаррез.*
*Кўнгул бермиш сўзумга турк жон ҳам,*
*Не ёлғуз турк, балким туркмон ҳам.*
*Не мулк ичраки бир фармон йибордим,*
*Анинг забтиға бир девон йибордим.*
*Бу девон тутти ул кишварни андоқ*
*Ки, девон тузмагай дафтарни андоқ [9, s.525].*

*İstərsə bir olsun, istərsə min bir,*
*Bütün türk elləri ancaq mənimdir.*
*Xətadan başlayıb Xorasanadək,*
*Ellər fərmanımla ömür sürəcək.*

*Şiraz da, Təbriz də mənim yerimdir,*
*Orda şöhrətlənən öz şakərimdir.*
*Türk mənim sözümə könül can verib,*
*Bircə türk verməyib türkmən verib.*
*Hansı bir diyarə fərman apardım,*
*Onu almaq üçün divan apardım.*
*Divanla almışam dediyim yeri,*
*Belə fateh deyil, divanbəyləri... [5, s.305]*

Nəvainin türklüyə, türk millətinə və türk dilinə olan sonsuz sevgi duyğuları "Mühakimətül-lüğəteyn" ("İki dilin qarşılaşdırılması") adlı risaləsində daha qabarıq şəkildə özünün parlaq ifadəsini tapmışdır. Nəvainin bu əsərində böyük mütəfəkkirin doğma dilinə olan sonsuz məhəbbəti, təəssübkeşlik hissləri ilə yanaşı, peşəkar bir dilçi-türkoloqun qədim elm sahələrindən olan dilçiliklə bağlı görüşləri də əks olunmuşdur. Cəmi dörd əlyazma nüsxəsi şəklində günümüzə qədər gəlib çatan kiçikhəcmli "Mühakimətül-lüğəteyn" əsəri [10, s.282] fars dili ilə türk dilinin ifadə imkanları və zənginlikləri baxımından qarşılaşdırılmasına, müqayisəsinə həsr olunmuşdur.

Qeyd etmək lazımdır ki, Nəvai gəncliyində dövrün çoxdankı ənənəsinə görə fars dilində lirik şeirlər (əsasən, qəzəllər) yazmağa başlamış, lakin çox keçmədən milli təəssübkeşlik duyğularının təsiri ilə əsərlərini doğma dilində qələmə almışdır. Ümumiyyətlə, qeyd edək ki, böyük sənətkarın qələmindən çıxan 32 əsərin düz yarısı – 16-sı türkcə, 16-sı isə farscadır [4, s.10]. "Mühakimətül-lüğəteyn" əsəri Nəvainin son əsərlərindən biri sayıla bilər. Belə ki, böyük sənətkar əsərin orta hissəsində öz yaradıcılığından bəhs açaraq, dörd divanının adını çəkərək onların "avazəsini" dünyanın dörddə birinə (mətndə: rüb'-i məskun) çatdırdığını qeyd edir. Nəvai sonra Nizami Gəncəvinin "Xəmsə" pəncəsinə pəncə urduğunı" dilə gətirir və burada "Beşliy"in ilk poeması olan "Heyrətül-əbrar"ın adını çəkərkən yazır: "Şeyx Nizami ruhu "Məxzənül-əsrar"idin *("Sirlər xəzinəsi"ndən – M.N.*) başimğə dürlər saçıbdur [8, s.13].

Nəvai ölümündən iki il əvvəl – 1499-cu ilin dekabr ayında qələmə aldığı bu risaləsinə "Mühakimətül-lüğəteyn" adını qoymasının səbəbini açıqlayaraq yazır ki, məqsədim türk dilinin fəsahət və bəlağətini diqqətə çatdırmaqdır. Müəllif onu da xüsusi olaraq vurğulayır ki, bu risalədən sonra türk qələm sahibləri öz dilinin – türkcənin söz və ifadələrinin incəliklərinə vaqif olacaq, beləliklə də, farsca yazanların bu barədə dedikləri tənəli sözlərdən, danlaqlardan birdəfəlik qurtulacaqlar.

"Mühakimətül-lüğəteyn" əsərinin əvvəlində özünü "təkəllüm (*söz – M.N.*) əhli xirməninq xuşəçini (*başaq toplayanı* – M.N.) və söz dürr-i səmin-i məxzənininq əmini və nəzm gülistanininq əndəlib-i nəgməsərayi" kimi təqdim edən Nəvai sözdən bəhs açaraq yazır: "Söz dürrdür kim, anunq dəryası könqüldür və könqül məzhərdür (*yerdir* – M.N.) kim, cəmi-i məani-yi cüzv və küldür". Könülü insan qəlbini bu kiçik və böyük mənaların yeri adlandıran müəllif orada özünə məskən salan söz dürrünün ona sahib olan şəxsin nitqi (dili) vasitəsilə ortaya çıxdığını diqqətə çatdırır. Söz haqqındakı fikirlərini nəsrlə bildirən müəllif iki qitəsində onları nəzmlə də ifadə edir.

Nəvai yer üzünün yeddi iqlimində (qitəsində) yetmiş iki tayfanın (mətndə: *firqənin*) yaşadığını qeyd edərək onların sözlərinin (dillərinin) digərlərindən fərqləndiyini də vurğulayır. Bu məsələyə xüsusi diqqət yetirən müəllif yazır ki, hər xalqın (mətndə: *cəmaət*) müəyyən özəlliklərinə görə digərlərindən fərqlənən söz və ifadələri vardır. Ayrı-ayrı xalqlarda elə söz və ifadələr mövcuddur ki, digər tayfalarda onlar yoxdur. Əsərə müəyyən mənada giriş təsiri bağışlayan bu sözləri ilə müəllif doğma dili olan türkcəyə, onun bənzərsiz söz və ifadələrinə işarə edir.

Nəvai bundan sonra əsl mətləbə keçərək qeyd edir ki, bütün dillər (müsəlman Şərqi dilləri nəzərdə tutulur) içərisində fəsahət və bəlağət baxımından ən üstünü ərəb dilidir. Nəvai onu da xüsusi olaraq vurğulayır ki, Allah-taalanın möcüzəli kəlamı bu dildə nazil olubdur və Onun "rəsulininq əhadisi ol ləfz bilə varid bulubdur". Nəvaiyə görə, ərəb dilindən sonra əsl və mötəbər üç dil: türk, fars

və hindi dilləri vardır ki, onların da kökü Nuh peyğəmbərin üç oğluna: Yasəfə, Sama və Hama gedib çıxır. Bu üç qardaşdan Yafəsi Əbüt-türk (Türkün atası) adlandıran Nəvai yazır ki, Allah-taala onu peyğəmbərlik tacı və "risalət mənsəbi bilə" qardaşlarından üstün etdi. Türk, fars və hind dilləri Nuhun bu üç övladının arasında yayıldı. Ərəb dili və yazısından kəlam, hind dilindən isə uğursuz nitq ortaya çıxdığı üçün biri şərafətdə, digəri isə aşağı səviyyədə yer tutdu. "Qaldı türkiy əlfaz (*sözlər* – M.N.) bilə məqsud ədası və farsi ibarət bilə kəlam mənası".

Bu iki dili – türkcəni və farscanı qarşılaşdıran Nəvai yazır ki, türk sartdan (*şəhərdə yaşayan farsdan* – M.N.) daha fəhmli (anlaqlı), düşüncəlidir və "xilqəti daha saf və pak məxluqdur". Bununla belə, ədalət prinsipini, düzlüyü və həqiqəti bütün həyatı boyu gözləyən böyük mütəfəkkir onu da qeyd edir ki, fars ziyalıları elmi düşüncə və fikir məsələsində daha dəqiqdirlər. "Bu hal türklərin həqiqətcil, saf və düz niyyətlərindən, sartların isə elm və fənlərdə hikmət sahibi olmalarından doğur. Nəvai bu məsələ ilə bağlı fikrini yekunlaşdıraraq qeyd edir ki, söz və ifadə yaratmaqda türk sartdan üstündür. Maraqlıdır ki, Nəvai burada daha bir incə məsələyə toxunur: türklərin hamısı farscanı anlayır, hətta türk şairləri fars dilində gözəl şeirlər də yazırlar, sartlar isə türkcəni bilmirlər. Bu məlum fakt türklərin tarix boyu digər xalqlara böyük ehtiramla yanaşdıqlarını, onların dillərini bildiklərini, hətta farsca nadir sənət inciləri yaratdıqlarını sübut edir. Türkəsilli böyük söz ustalarından Əfzələddin Xaqani Şirvani, Nizami Gəncəvi və Mövlana Cəlaləddin Ruminin və digərlərinin yaradıcılığı buna ən yaxşı nümunə ola bilər. Elə Nəvainin özü də gəncliyində Fani təxəllüsü ilə farsca incə şeirlər yazmışdır və əsərdə bu faktı da dilə gətirir.

Nəvai "Mühakimətül-lüğəteyn" risaləsinin bu yerində əsl dilçi-türkoloq kimi çıxış edərək əsərinin başlıca məram və məqsədini, mətləbini açıqlayır. Müəllifin fikrincə, türklər daima öz dillərini təkmilləşdirmiş və bir sıra anlayışları ifadə edən xüsusi və nadir, bənzərsiz sözlər yaratmışlar. Nəvai bu fikrinə sübut olaraq fars dilində qarşılığı olmayan türkcə nə az, nə çox, düz yüz ədəd feili nümunə kimi verir. Yeri gəlmişkən qeyd edək ki, həmin yüz feildən çoxu orta çağlara aid Azərbaycan yazılı abidələrində işlənir.

Nəvai dilçi-türkoloq kimi qeyd edir ki, bu yüz feilin mənalarını sartların dilində yalnız təsviri yolla, yəni bir neçə söz və ya tərkib vasitəsilə vermək, anlatmaq mümkündür. Nəvai bu fikrinə sübut olaraq həmin sözlərin işləndiyi bir neçə şeiri diqqətə çatdırır. Həmin sözlər sırasında müasir ədəbi dilimizdəki *"ağlamaq"* feilinin incə məna fərqi ilə seçilən sinonimləri olan *inqrəmək, sinqrəmək, sıqtamaq, ögürmək, inçkirmək, yığlamaq, yığlamsınmaq* leksik vahidləri xüsusilə diqqəti çəkir. Müəllif incə məna çaları ilə fərqlənən həmin sözlərə nümunə olaraq türkcə kiçik şeir nümunələri verir ki, onlardan biri orijinalda belə səslənir:

*Ol ay ki gülə-gülə* ***qırağlattı*** *məni,*
***Yığlattı*** *məni, demay ki,* ***sıqtattı*** *məni.*

Qeyd edək ki, bu şeir nümunəsindəki *qırağlattı, yığlattı* və *sıqtattı* feillərinin üçü də müasir Azərbaycan ədəbi dilindəki *ağlatmaq* anlamındadır, sadəcə olaraq, Nəvainin verdiyi örnəkdə bunlar incə məna fərqi ilə bir-birindən seçilirlər. Nümunədəki *yığlatmaq* feilinə orta əsrlər Azərbaycan yazılı abidələrinin çoxunda rast gəlirik, *sıqtatmaq* isə müasir ədəbi dilimizdəki *sızlatmaq* anlamındadır. Nəvai yuxarıdakı feillərdən heç birinin fars dilində qarşılığı olmadığını da ayrıca olaraq diqqətə çatdırır.

Nəvai türk dilindəki *yasanmaq* feilinin fars dilində *arəstə* və *arayeş* (bəzək, bəzənmə) kimi qarşılıqları olduğunu qeyd edərək yazır ki, bununla belə türkcədəki *bəzənmək* feilinin qarşılığı sartlarda yoxdur. Müəllif bu iki sözün eyni misra daxilində işləndiyini və *bəzənmək* feilinin *yasanmaq* leksik vahidinin mübaliğəsi anlamı daşıdığını da bir dilçi kimi diqqətə çatdırır:

*İrür bəs çü hüsnü məlahət sanqa,*
*Yasanmaq-bəzənmək nə hacət sanqa.*

Qeyd edək ki, *yasanmaq-bəzənmək* ifadəsi müasir ədəbi dilimizdə *bəzənib-düzənmək* şəklində işlənir.

Nəvainin aşağıdakı açıqlaması da türkcənin ifadə vasitələrinin zənginliyini sübut edir və böyük maraq doğurur. Sənətkar yazır ki, türklər *göz yaşı* və *ağlamaq* sözlərini çox vaxt *ah* və *isti nəfəs* (orijinalda: *dəm*) ifadələri ilə qoşa işlədir və *isti nəfəsi çaqına* (şimşəyə, qığılcıma), *ahı* isə *ildırıma* bənzədirlər:

*Fəraqinq içrə ulus örtəməkqə, ey mahim,*
*Çaqındurur dəmimü ildırımdurur ahim.*

Bu nümunəni verən Nəvai qeyd edir ki, farslarda *çaqın* və *ildırım* sözlərinin qarşılığı yoxdur. Onlar bu anlayışları ərəb dilindən aldıqları *bərq* və *saiqə* sözləri ilə ifadə edirlər. Müəllifin bir dilçi-türkoloq qələmindən çıxan bu sözləri onun fars və ərəb dillərini də incəliyinə qədər bildiyindən xəbər verir. Qeyd edək ki, *çaqın* sözü *şimşək* anlamında müasir türk dilində işlənir [6, s.164], lakin Azərbaycan dili üçün arxaik səciyyə daşıyır.

Nəvai "Mühakimətül-lüğəteyn" risaləsində türkcə sözlərin omonimliyindən də söz açır və bu qəbildən olan sözlərin şeirdə cinas yaratdığını da önə çəkir. Müəllif bu qəbildən olan sözlərə nümunə olaraq *at, it, tuş, tüz* (düz), *bar* (var), *kök* (göy) və s. kimi leksik vahidləri qeyd edir. Məsələn o yazır ki, *it* həm isimdir – heyvan adıdır, həm də *itmək* (yox olmaq) və *itələmək* anlamında işlənir. Qeyd edək ki, *itmək* feilinin ikinci mənası müasir ədəbi dilimiz üçün arxaik səciyyə daşısa da, türk dilində işlənir.

Nəvai sözügedən risaləsində, həmçinin etnoqrafik səciyyəli ayrı-ayrı türk sözlərinin incəliklərinə də toxunur və bu baxımdan fars dilinin yoxsulluğunu göstərir. Məsələn, müəllif yazır ki, türklərdə *ov ovlamaq* və *quş quşlamaq* bir-birindən incə məna fərqinə seçilir və bu məşğuliyyətlə bağlı sözlər də eyni deyil. Farslarda isə hər iki anlayış bir sözlə ifadə olunur: *şekar* (ov). Bundan əlavə türklər *keyikin* (maralın) erkəyinə *hünə*, dişisinə isə *qılçaqçı* deyərlər. Sartlarda isə *keyik* yalnız *ahu* və *gəvəzn* sözü ilə ifadə olunur. Nəvai türklərin quş ovuna aid sözlərdə də sartlardan üstün olduğunu qeyd edərək aşağıdakı çöl quşlarının adlarını göstərir və onların fars dilində də elə bu cür işləndiyini diqqətə çatdırır: *qulanurğa, yapalağ, quladölənək, çaylaq, toğday, çağruq, qılquyruq, qaraquş, tilbəquş, çığçığ* və s.

Müəllif türklərdə dəvə bozlamağının, qoyun munqraməyinin, inək inqrəməyinin, it boğuşmağı və ulamağının farslarda qarşılığı olmadığını da qeyd edir. Nəvainin bu qəbildən olan sözlər sırasında at cinsləri, atların yaşlarına görə adlarının çoxunun türkcədən farscaya keçdiyini də xatırladır. Müəllifin bu mövzuda verdiyi maraqlı bilgilərdən biri də sartların türklərdən götürdüyü yemək adları: *qaymağ, qatlama, bulamağ, qurut, ulaba, mantu, quymağ* və içki adlarıdır: *qımız, süzmə, baxsum, boza, tutmaç, umaç, küməç, talğan* və s.

"Mühakimətül-lüğəteyn"də Nəvainin türk dilinin morfologiyası ilə bağlı yüksək peşəkarlığı ilə seçilən fikirləri də öz əksini tapmışdır. Məsələn, müəllif qeyd edir ki, türklər bəzi feillərə *şin* hərfini artırmaqla iki adamın birgə hərəkətini ifadə edirlər. Məsələn: *çapmaq-çapışmaq, tapmaq-tapışmaq, qucmaq-qucuşmaq* və s. "Farsca danışan kəslər bəlağət və fəsahətdən dəm vursalar da, bu faydadan məhrumdurlar". Nəvai böyük iftixarla qeyd edir ki, bu cür sözləri yaradanlar "öz ustalıqları ilə sart söz ustalarını ötüb keçiblər".

Nəvainin türk dilinin morfoloji quruluş baxımından farscadan böyük üstünlüyü ilə bağlı fikirləri sırasında türkcədə feilin icbar növünün farscada birbaşa qarşılığının olmaması haqqındakı əsl dilçi peşəkarlığı ilə seçilən qeydləri də diqqətçəkicidir. Müəllif feilin bu növünün türk dilində -t morfemi ilə düzəldiyini qeyd edir: *elə+t, yaşur+t, yügür+t* və s.

Nəvai sözügedən risaləsində türklərdə söz yaradıcılığı məsələsi üzərində də dayanaraq türk dilindəki -*çı* şəkilçisi ilə düzələn bir sıra leksik vahidlərin qarşılığının farscada olmadığı üçün bu

dildə də eynilə işləndiyini yazır. Məsələn: *qorçı, yutçı, axtaçı, quşçı, barsçı, qoruqçı, tamğaçı* və s. Müəllif türklərdə işlək olan feili bağlama şəkilçisi *-gəc, -ğac* ilə ifadə olunan sözlərin (*yetgəc, itgəc, barğac* və s.) farslarda qarşılığı olmadığını da diqqətə çatdırır.

Nəvai türkcədən farscaya keçən sözlər sırasında *-laq* şəkilçisi ilə düzəlmiş aşağıdakı leksik vahidləri də qeyd edir: *qışlaq, yaylaq, quşlaq* və s.

Nəvai həmçinin *-vul* şəkilçisi ilə düzəlmiş və orta əsrlərdə türkcədə çox işlək olan aşağıdakı hərbi terminləri də diqqətə çatdırır: *heravul, qaravul, yanqavul, yasavul, bukavul* və s. Müəllif türk dilinin bu cür incəliklərini qeyd edərək təəssüf hissi ilə yazır ki, bütün bunlar indiyədək gizli qalıbdır və çoxlarına bəlli deyil.

"Mühakimətül-lüğəteyn" risaləsində Nəvainin yüksək milli təəssübkeşliyi və qızğın vətənpərvərlik duyğuları da qabarıq şəkildə öz ifadəsini tapmışdır. Mütəfəkkir şair ürək ağrısı ilə qeyd edir ki, türk dili bu cür kamil olduğu halda, türk gəncləri indiyədək fars dilində şeir yazıblar. "Əgər onlarda iki dildə yazmaq bacarığı vardırsa, öz dillərində daha çox, başqa dildə isə az yazmalıydılar". Nəvai bu sözləri qeyd etdikdən sonra, etiraf edir ki, o da gəncliyində fars dilinə meyil salıbdır. Yalnız "şüur sinninə" qədəm qoyandan sonra türk dilinə üstünlük verməyə başlamışdır.

Risalənin sonunda Nəvai özünün çoxşaxəli yaradıcılığına nəzər salaraq qələmindən çıxan əsərlər haqqında qısa bilgilər verir və "türk ulusunun fəsihlərini" (gözəl danışanları) onun yazdıqlarından fayda tapacağına ümidvar olduğunu qeyd edir.

Beləliklə, dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin ana dilində yazdığı "Mühakimətül-lüğəteyn" risaləsi dahi söz ustadının digər elm sahələrində olduğu kimi, dilçilik, xüsusilə də türkologiya sahəsində də böyük bir bilgin olduğunu əyani şəkildə sübut edir.

Nəvainin bu gün də aktuallığını qoruyub saxlayan "Mühakimətül-lüğəteyn" əsəri hələ 1902-ci ildə böyük türkçü, "Dildə, fikirdə, əməldə birlik" şüarının müəllifi İsmayıl bəy Qaspıralının ön sözü ilə Baxçasarayda Azərbaycan dilində nəşr olunmuşdur. Türkçülük məfkurəsinin böyük ideoloqlarından olan Əli bəy Hüseynzadə 1916-cı ildə yazmışdır: "Mühakimətül-lüğəteyn" fars ilə türk dilləri arasında ədibanə və münəqqidanə bir mühakimə olub, türk dilinin fars dilindən varlı və mükəmməl olduğunu isbat etmək məqsədilə yazılmışdır" [1].

Onu da qeyd edək ki, 1926-cı ilin əvvəllərində Bakıda keçirilən Birinci Türkoloji Qurultay tədbirləri çərçivəsində böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin 500 illik (əslində 485 illik) yubileyi də qeyd olunmuş və görkəmli dilçi alim Bəkir Çobanzadə bu münasibətlə "Nəvai-dilçi" və "Nəvainin dili və dilçiliyi haqqında" adlı iki məqaləsini bu böyük söz ustadının "Mühakimətül-lüğəteyn" əsərinin təhlili əsasında qələmə almışdır [3; s.9]. B.Çobanzadə yuxarıda adı çəkilən məqalələrindən ikincisində yazır: "Nəvainin dilçiliyi müəyyən əsaslar üzərində qurulmuşdur. O, türk dilinin qüvvətli, fars dilinin zəif nöqtələrini fərq etmişdir... Nəvainin dilçiliyində bu gün də qiymət veriləcək bir nöqtə (*incə məqam* – M.N.) varsa, o da onun türk dilindəki şəkilçilərə nəzər – diqqəti cəlb etməsidir" [3, s.229].

## Nəticə / *Conclusion*

Son olaraq daha bir maraqlı faktı qeyd edək: Azərbaycançılıq məfkurəsinin böyük ideoloqlarından biri kimi tanınan Cavad Heyət dahi özbək söz ustasının sözügedən əsərinin təsirilə "Moğayesetol-loğəteyn" ("İki dilin müqayisəsi") adlı əsər yazmışdır. C.Heyət bu əsərində türkcənin bir sıra dil göstəricilərinə görə fars dilindən üstün olduğunu konkret faktlarla sübuta yetirməyə çalışmış və buna uğurla nail olmuşdur. Müəllif bu dəyərli kitabının sonunda fars dilində qarşılığı olmayan və mənası bir neçə sözlə ifadə olunan 1750 ədəd Azərbaycan türkcəsi sözünün siyahısını vermişdir. Bu siyahıda olan sözlərdən bəziləri kiçik fonetik dəyişikliklə fars dilində də işlənir [4, s.12].

Görkəmli Türkiyə ədəbiyyatşünası Əhmd Kabaklı böyük özbək şairinin, əsasən, bu əsərini nəzərə alaraq yazmışdır: "Nevai, Türk Bilge Kağan və Kaşğarlı Mahmud'dan sonra tarih içinde en

şuurlu Türk milliyetçisidir" [7, s.149). Tanınmış türkoloq alim Turxan Gəncəi 1327/1947-ci ildə Nəvainin bu dəyərli risaləsini fars dilinə çevirərək Tehranda nəşr etdirmişdir [4, s.11].

**Ədəbiyyat /** ***References***


1. Almaz Ülvi (Binnətova). Türk ədəbi dil məktəbinin elmi nəzəri əsasları: "Mühakimət ül-lüğəteyn" əsəri. "Kaspi" qəzeti, 2020, fevral.
2. Bəkir Çobanzadə. Nəvai-dilçi. Seçilmiş əsərləri. II cild. Bakı, "Şərq-Qərb".
3. Bəkir Çobanzadə. Nəvainin dili və dilçiliyi haqqında. Seçilmiş əsərləri. II cild. Bakı, "Şərq-Qərb".
4. Cavad Heyət. İki dilin müqayisəsi. Bakı, "Elm", 1991.
5. Əlişir Nəvai. Seçilmiş əsərləri. Bakı, "Öndər", 2004.
6. Türkçe-rusca sözlük. Hazırlayanlar: A.Baskakov ve b. Moskva, 1977.
7. Kabaklı Ahmet. Türk Edebiyatı. II cilt, IX baskı, İstanbul, 1994.
8. Alisher Navoiy. «Muxommat-ul-lughatayn». Nashrga tayerlovchi. Porso Shamsiev. www.ziyouz.com kutubxonasi.
9. Alisher Navoiy. Mukammal asarlar tuplami. Sakkizinchi tom. Farkhod va Shirin. Toshkent, 1991.
10. Kosim Sadikov. «Muxommat-ul-lughatayn» asari kulezmalarining choghishtirma taxlili. Alisher Navoiy ijodiy merosining umumbashariyat manaviy-marifiy taraggiyotidagi orni mavzusidagi II ananaviy xalqoro ilmiy-amaliy konferensiya materiallari. Toshken, "Ozbekiston", 2018.


## Алишир Навои – языковед-тюрколог


**Мохсун Нагисойлу**
Академик, директор Института языкознания им. Насими НАНА. Азербайджан.
E-mail: dr_mohsun@yahoo.com



**Резюме.** Великий узбекский поэт и мыслитель Алишир Навои, наряду с художественным творчеством, занимался также научной деятельностью и написал ряд научных трактатов. В написанном поэтом в конце жизни сочинении «Мухакимат ал-лугатейн» имеется ряд интересных и ценных суждений относительно языкознания и в частности тюркологии. В этом небольшом по объёму сочинении автор при сопоставлении тюркского и фарсидского языков обнаруживает отсутствие в последнем эквивалентов ста глаголов, употребительных в родном языке. Помимо этого, в трактате отмечается отсутствие в фарсидском языке ряда тюркских слов этнографического порядка и вследствие этого перешедших в него без изменения. В этом сочинении крайне интересны заключения Навои как языковеда-тюрколога, который особо подчёркивает значение морфологических особенностей и многообразной словообразовательной функции тюркских языков. Как следствие этого, Навои, обращаясь к своим тюркоязычным соплеменникам, отмечает превосходство по ряду качественных особенностей тюркского языка перед фарсидским и призывает их писать на родном языке.


**Ключевые слова:** Навои, «Мухакимат ал-лугатейн», тюрк, сарт, глаголы, словообразование